

*Ələsgər Əlioğlu*

## DÜNYANIN YERİYƏN AĞACLARIYIQ

Dünyanın
Yeriyən ağaclarıyıq,
Bahara həmişə
Çatar əlimiz.
Dünyanın
Yeriyən ağaclarıyıq,
Bir yaşıl yarpaqdır
Hər əməlimiz...
Palıdlar da bir az
"Əfəldir" hələ,
Onların yanında
Çox zirəyik biz...
Dumanlı,buludlu
Gündə də belə,
Düşər yer üzünə,
Düşər kölgəmiz.
Bizim başımıza
Çıxmaq çətindir,
Sallaşan tapılar
Ətəyimizdən.
Bizi gövdəmizdən
Yıxmaq çətindir,
Ancaq yıxılarıq
Ürəyimizdən...
Torpaqda olsa da
Ayaqlarımız,
Kök atıb qalxarıq
Əllərimizdən.
Ağzıgünə qalar
Budaqlarımız,
Ağlımızda yuva
Qurular bəzən...
Neçə ki,
Neçə ki
Dik dayanarıq,
Yanarıq!..
Olsa da
Dörd yanımız buz!
Elə ağaclarıq,
Höyüş yanarıq,
Dünya yığışsa da,
Yanmaz qurumuz!..

## O SEVDANIN AXIRI

O gözəl üstümdən çəkdi gözünü,
Tökdü ləçək-ləçək
Güllü yazımı...
Çay təki çevirib məndən üzünü,
Daha başqa səmtə axası oldu.

O getdi...
Ömrümdən uzağa getdi,
Doğma cığır itdi,doğma iz itdi.
Özgə birisini yanıb isitdi,
Tüstüsü başımdan çıxası oldu.

Düşdüm bir fəsildə neçə fəsilə,
Dedim,sevən könlüm,daha bəs elə...
Axırda
Ortada qalan bir həsrət,
Bir də Əlioğlunun yaxası oldu!..

## METRODA DİLƏNƏN QARI

Gözləri hamıdan imdad diləyir,
Abır-həyasına dirənir qarı.
Yoxsa yerin üstü darlıq eləyir,
Girib yerin altda dilənir qarı.

Çətin ki,açılar üzünün donu,
Fikrinə illərin qırovu düşür.
Çoxuna görünməz dünyanın sonu,

Qarıya
Dünyanın sonu yetişir...

Düşüb yerin altda belədən-belə,
Qarı taleyindən gizlənir yəqin.
Güclə gedir-gəlir nəfəsi elə,
Onu aylar,illər izləyir yəqin...

Boğur varlığını ehtiyac seli,
Qarı ürkək-ürkək ətrafı süzür.
Bəlkə yerin üstdən üzülüb əli,
Qarı yerin altda mərhəmət gəzir!..

## UÇUB BU SİNƏMDƏN ÜRƏYİM MƏNİM

Ömrüm pay-puş olub,uralanmışam,
Di gəl ki,bu eşqdən oda yanmışam.
Gəncliyimdən elə aralanmışam,
Kölgəsinə belə çata bilmirəm.

Saçımda yurd salıb duman-çən daha,
Bilirəm bu sevdam tutmaz dən daha...
Yanan ocağımı təzədən daha,
Söndürüb günaha bata bilmirəm.

Nə yaman gecikib çiçəyim axı,
Artıq bir nağıldır diləyim axı!..
Ucub bu sinəmdən ürəyim axı,
Uçub kəpənəktək...
Tuta bilmirəm!..

## MƏLİKMƏMMƏDƏ MƏKTUB

Dəyişib dünyanın halı-əhvalı,
Məlikməmməd, sənə nə vardı axı!
Hər əli möhürlü bir hava çalır,
Bilmirsən
Fırlanan nə valdı axı!

Əlimiz çox şeyə çoxdan yetərdi,
Başımız qatılıb quru öyüdlə.
Dərdimiz olsaydı tək alma dərdi,
Alma gətirərdi
Barsız söyüd də!..

Dəyişib havalar eh, yavaş-yavaş,
İndi göz qorxuzur meh əsməyi də...
Dünən kəndirini kəsənlər, qardaş,
Bu gün öyrəniblər
Cib kəsməyi də!..

Qabağına çıxan Ağ qoç, Qara qoç,
Tutulub,
Kiməsə "pay" aparılıb...
İndi əjdahanın qabağından qaç,
Quyruğu yüz yerə gedib sarılıb...

Məlikməmməd, məni eşidirsənmi,
Bir bəri yön çevir,
tanı dünyanı.
Şüşədə deyil ha, qabaqkı kimi,
Daha rüşvətdədir divlərin canı!..

Qaranlıq dünyaya indi düş görüm,
Orda keçirərsən yayı, qışı da.
Sənə bu xəbəri nə üzlə verim,
Ovlanır, ovlanır, Zümrüd quşu da!..

## DAŞ NAĞILI

O daşı arxanca sürümə görək,
Şöhrət axtarırsan kimin gözündə?!
Bəlkə də kar etməz sənə söz demək,
O daşdan bərk olub
Daha üzün də!..

Dünyada başına qəhətdirmi iş,
Ölünə yanırsan, yoxsa dirinə?!
(Ayı deyilsən ki,
İyləndirməmiş,
Ovunu vurmursan heç vaxt dilinə!..)

Tarixi bu qədər ucuz tutma gəl,
Zəhərmi qatırsan qonşu aşına?!
Daşını ortada çox oynatma gəl,
Düşər başına!..

Vərdiş eləyərsən daş basdırmağı,
Daş qalmaz
Olduğun obada, eldə.
Evinin daşı da qurtarar axır,
Qışın ortasında
Qalarsan çöldə...

Ağacı kökündən ayırsan düşün,
Bir də gülər ona heç yazın üzü?!
Basdırdığın daşı çıxarıb bir gün,
Səni daşa basar
Tarixin özü!..

## AĞRILI MİSRALAR

Dollarla yuyulur ölüm də,qan da,
Çatır məhşər günü,çatır deyəsən.
Zaman vicdanını qoyub sapanda,
Elə hara gəldi atır deyəsən!..

Haramla üfrülür gödənlər indi,
(Dərimiz soyular nə qədər daha!?)
Azalır əcəllə gedənlər indi,
Artır sifarişli qətillər daha...

Satqınlar tor qurur bu məmləkətə,
Bir layihə gəzir hər əldə bu gün.
Sabah baş verəsi bir cinayətə,
Şahid də tutulur,vəkil də bu gün.

Böhtanla yoğrulan nağıllar var ki,
Doğrunu susdurur,düzü kiridir.
Məhbəsdə çürüyən oğullar var ki,
Torpaqda çürüyən qılınc kimidir...

Dünyanın Həmzəsi yaman çoxdu,çox,
(Gör kimin əlində Qırat çapılır!..)
Kasıbın başına indi papaq yox,
Nə qədər istəsən...qapaz tapılır!..

Həniri kəsilir haqq-ədalətin,
Quyu-qulaqlarda boğulub batır.
Zəlisi artdıqca bu məmləkətin,
Zəlili də elə
Bir ucdan artır!..

Dollarla yuyulur ölüm də,qan da,
Çatır məhşər günü,çatır deyəsən.
Zaman vicdanını qoyub sapanda,
Elə hara gəldi atır deyəsən!..

## SATILAN ORDEN-MEDALLAR

Bir müharibə veteranı
bir parça çörəkdən ötrü
öz orden-medallarını satırdı...
Müştəri axtarır gözlərin indi,
Medallar necə də düzülüb səf-səf...
Dünən faşistləri hədəf seçərdin,
Bu gün
Ehtiyaca özünsən hədəf!

Alışdan-verişdən ha qaçsan da gen,
Bazar qiymətindən
Yaxşı halısan.
Asılı olardı döşündən orden,
Amma indi ondan sən asılısan.

Qatıb öz ömrünə sənin ömrünü,
Dəmir parçaları gur işıq saçır.
Qələbə bayrağı sancdığın günü,
Duyub-düşündükcə
Ürəyin sancır...

Bazarda sinənə dağ çəkilir,dağ,
Abırdan sozalan şama dönürsən.
Dünən səngərlərə sinərdin...
Ancaq
Bu gün piştaxtaya gəlib sinirsən...

Xəyalın baş vurur,cumur dərinə,
(Dünyanın təzadı bitib-tükənməz!..)
Əlini uzatdın...
Çatdı Berlinə,
Çörək dükanına çatmır niyə bəs!?

(Taleyin bu acı mənzərəsini,
Duyuram iki daş arasında mən.
İndi igidliyin məzənnəsini,
Görürəm piştaxta arxasında mən!)

İçində boğulur harayın,ünün,
Çırpınır ürəyin hansı istəklə!?
Döyüşlərdə uçub-dağılan ömrün,
Təzədən
Hörülməz kərpic çörəklə!..

Ədalət 2019.- 7 dekabr.- S.14.